Qəzet
1931-ci ilin
aprelindən
çıxır

# DƏNİZ

8 iyun
2015-ci il
№ 19-20 (8977)
Qiymәti
38 qәpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti

# ODLAR YURDU TARİX YAZIR

Bu gün artıq Azərbaycan və Bakı şəhəri bu Oyunların keçirilməsi üçün tam hazırdır. Təşkilat Komitəsinə bu yüksək fəaliyyətə görə minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, beynəlxalq və yerli mütəxəssislərdən ibarət beynəlxalq Əməliyyat Komitəsinə də minnətdarlığımı bildirirəm. Onların da fəaliyyəti təqdirəlayiqdir...

Son illər ərzində Azərbaycanda müasir idman infrastrukturu yaradılmışdır. Azərbaycanın bölgələrində 40-dan çox Olimpiya İdman Mərkəzi yaradılmışdır. Bakı şəhərində yaradılan və əsaslı şəkildə təmir edilən obyektlərimiz ən yüksək standartlara cavab verir. Şəxsən mən hesab edirəm ki, bundan yüksək standart mümkün deyil.

Beynəlxalq yarışların keçirilməsi üçün kifayət qədər təcrübəmiz var. Son illər ərzində Azərbaycanda çoxsaylı dünya və Avropa çempionatları keçirilmişdir. Azərbaycanın sürətli iqtisadi inkişafı əlbəttə ki, bu qərarın qəbulunda öz rolunu oynamışdır. Hesab edirəm ki, önəmli məsələ ondan ibarətdir ki, Azərbaycan əhalisi bu qərarı böyük sevinclə və qürur hissi ilə qarşılamışdır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



İdmançılarımızın uğurları, idmana dövlət tərəfindən göstərilən güclü dəstək, müasir idman infrastrukturu və əlbəttə, ölkəmizin sürətli inkişafı Avropa Olimpiya Komitəsinin birinci Avropa Oyunlarının Azərbaycanın paytaxtı Bakıda keçirilməsi haqda qəbul etdiyi qərarın əsasını təşkil edib. Bu oyunlar Avropa idmanı tarixində yeni səhifə açacaq. Birinci Avropa Oyunlarını təşkil etmək, ona ev sahibliyi etmək və onu keçirmək həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Oyunlarda 6 mindən çox atlet iştirak edəcək. Onlar 16-sı Olimpiya idman növləri olmaqla 20 idman növündə yarışacaqlar. Təbii ki, Bakı Oyunları bütün gələcək oyunlar üçün səviyyə, standart olacaq.

Oyunlara hazırlaşmaq üçün bizə cəmi iki il yarım vaxt ayrılmasına baxmayaraq, biz bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək niyyətindəyik. Çox güclü Təşkilat Komitəsi bunun üçün zəruri olan bütün işləri görür. Biz beynəlxalq idman təşkilatları, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar ilə əməkdaşlıq edirik. Könüllülər bizi çox güclü dəstəkləyirlər. Azərbaycanda minlərlə gənc bu oyunlarda könüllü olmaq arzusunu bildirib.

**Mehriban ƏLİYEVA,**
**Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri**

## AZƏRBAYCAN İLK AVROPA OYUNLARININ VƏTƏNİNƏ ÇEVRİLƏCƏK

**"Bakı-2015" ilk Olimpiya Oyunlarının başlanmasına sayılı günlər qalıb. Qədim qitədə ilk dəfə keçiriləcək bu mötəbər idman tədbirinin məhz Azərbaycana həvalə edilməsi qəlbimizi qanuni iftixar hissi ilə doldurur. Axı bu möhtəşəm tədbirdən sonra Azərbaycan əbədi olaraq ilk Avropa Oyunlarının Vətəni hesab olunacaq.**

Heç kəsə sirr deyil ki, I Avropa Oyunlarının ölkəmizdə keçirilməsi Azərbaycan xalqına, Azərbaycan dövlətinə, onun müdrik başçısı cənab İlham Əliyevə böyük inamın, yüksək etimadın göstəricisidir. Cənubi Qafqazın lider ölkəsi Azərbaycan artıq dünyada həm də aparıcı idman ölkələrindən biri kimi tanınır. I Avropa Oyunlarının Azərbaycanda keçirilməsini ölkəmizdə görülən bütün işlərə, o cümlədən idman sahəsində əldə edilən nailiyyətlərə verilən yüksək qiymət kimi də dəyərləndirmək olar.

Bir neçə gündən sonra başlanacaq I Avropa Oyunları ölkəmizin bütün dünyada çox böyük təbliğatına imkan yaradacaq. Gələn qonaqlar, Olimpiadanı televiziya kanallarından izləyəcək tamaşaçılar Azərbaycanın necə gözəl ölkə, xalqımızın nə qədər tolerant, qonaqpərvər, sülhsevər olduğunu gözləri ilə görəcəklər.

Ən əsası, "Bakı-2015" ilk Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi son illər bütün mötəbər yarışlarda yüksək nəticələrə imza atan idmançılarımız üçün əlavə stimul olacaq.

Biz yaxşı mənada dünyanı heyrətləndirməyi bacarırıq. Adətən belə mötəbər çoxnövlü idman yarışlarına hazırlıq üçün 7 il vaxt ayrılır. Bakıda bütün hazırlıq işlərinin iki il yarıma yekunlaşdırıldığını bütün dünya gördü və etiraf etdi. Əminəm ki, I Avropa Oyunları zamanı da dünyanı yaxşı çox şeylərlə heyrətləndirəcəyik.

**Sakit MƏLİKOV,**
**"AXDG" QSC-nin Donanmanın istismarı departamentinin rəisi**




## Ölkəmiz qitənin idman həyatında yeni səhifə açır

Hər keçən gün bizi 2015-ci ilin çox böyük idman hadisəsinə - I Avropa Oyunlarına daha da yaxınlaşdırır. Bakının I Avropa Oyunlarının paytaxtı seçilməsi ən əvvəl ölkəmizin bütün sahələrdə qazandığı uğurların etiraf edilməsi deməkdir.

Azərbaycanın yüksək səviyyəli idman tədbirinə çox qısa dövr ərzində hazır olması isə ölkəmizə bu etimadın təsadüfi olmadığını bir daha təsdiq edir. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin özünün də etiraf etdiyi kimi: "Bəli, hər şey göz önündədir. Az bir zamanda Azərbaycanın gördüyü işlər Avropa Olimpiya Komitəsini çox təəccübləndirib".

Azərbaycan rəhbərliyi ilə işləməkdən olduqca məmnun qalan AOK-un rəhbərliyi vurğulayıb ki, Azərbaycan hökumətinin peşəkarlığı və diqqəti onları hər zaman təsirləndirir. İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyeva hazırlıq işlərində şəxsən iştirak edərək dəyərli göstəriş və tövsiyələrini vermiş, işə tam sadiqliyini nümayiş etdirmişdir. Təşkilat Komitəsi və "Bakı-2015" ilk Avropa Oyunları Əməliyyat Komitəsinin peşəkar heyəti AOK-un planlarını reallığa çevirmək üçün 27 ay ərzində yorulmadan çalışıblar.

Bəli, biz ilk Avropa Oyunlarına hazırlıq işlərinə çox böyük qüvvə sərf etdik. Başlayan gündən isə ilk Avropa Oyunları bizə işləyəcək. Ölkəmizə gələn hər bir qonaq müstəqil Azərbaycanın yeni libasını görəcək, ərazisi və əhalisinə görə çox da böyük olmayan dövlətin az bir zamanda sahib olduğu yüksəliş onların hər birində müsbət rəy formalaşdıracaq.

Üstəlik inanıram ki, Azərbaycan yüksək səviyyədə ev sahibliyi etdiyi ilk Avropa Oyunlarında həm də qızıl medalların sayını artırmaqla özünün idman tarixinə yeni uğurlu səhifələr yazacaq.

**Siyasət ƏLİYEV,**
**"AXDG" QSC-nin Texniki və gəmi tikintisinə nəzarət şöbəsinin rəisi**

# ODLAR YURDU TARİX YAZIR



## Yeni qələbələrə doğru!

**2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi barədə qərar qəbul edildi. Bu qərar ölkəmizin bu mötəbər tədbirə layiqincə ev sahibliyi edə biləcəyinə əminliyin ifadəsi, Azərbaycan dövlətinin idmana qayğısının bəhrəsi idi. Bu qərar qədim qitənin ölkələrinin gənc, müstəqil Azərbaycanı güclü dövlət kimi qəbul etmələrinin etirafı idi. Bu inam və etimad isə Azərbaycanımıza Avropa Oyunlarının standartlarını müəyyənləşdirmək səlahiyyəti verib...**





Möhtərəm Prezidentimiz İlham Əliyevin dövrün tələblərinə uyğun həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan son 11 ildə dünyada iqtisadi artım templərinə görə ən sürətlə inkişaf edən ölkələrdən biridir. Davos Dünya İqtisadi Forumunun hesablamalarında da Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə hər il yüksək yerlərdən birində qərarlaşır.







Azərbaycan müstəqil dövlət kimi, Olimpiya Oyunlarına ilk dəfə 1996-cı ildə qatıldı. Onda sərbəst güləşçimiz Namiq Abdullayevin qazandığı ilk Olimpiya medalının sevincini yaşadıq. 2000-ci ildə isə Sidney Yay Olimpiya Oyunlarında 2 qızıl, 1 bürünc medal qazandıq. Bu medallarla Azərbaycan 199 ölkə arasında 34-cü yeri tutdu.

2004-cü ildə Afinada keçirilən Yay Olimpiya Oyunlarında yığma komandamız 1 qızıl, 4 bürünc qazanaraq 202 dövlət arasında 37-ci yerə layiq görüldü.

2008-ci ildə Pekində keçirilən Yay Olimpiya Oyunlarında millimiz yeni rekord müəyyənləşdirdi - 7 medal: 1 qızıl, 2 gümüş və 4 bürünc medal!

2002-ci ildə London Yay Olimpiya Oyunlarında idmançılarımız 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazandılar. Başqa sözlə, ölkələrin cədvəlində Azərbaycan 30-cu, medalların sayına görə 24-cü, Avropa ölkələri arasında 15-ci, müsəlman ölkələri arasında 3-cü yeri tutdu.

Olimpiadadan sonrakı illərdə də idman uğurlarımız davam etmişdir. İdmançılarımız 2013-cü ildə 148 beynəlxalq yarışda iştirak edərək 248 medal qazanmışlar. Keçən il 165 beynəlxaq yarışda 250 medalla bizi sevindirdilər. Cari ilin birinci rübündə isə beynəlxalq yarışlarda qazandığımız uğurlar belə sıralamaq olar: 16 qızıl, 13 gümüş, 29 bürünc!

Yaxın zamanlarda bu medalların sayını artırmaq imkanımız böyükdür. Bir neçə gündən sonra Birinci Avropa Oyunları, Avropa Oyunlarından 2 il sonra - 2017-ci ildə Azərbaycanda İslam Həmrəyliyi Oyunları keçiriləcək. Müxtəlif beynəlxalq turnirlərdə, Avropa və dünya çempionatlarında, 2016-cı ildə Rio-de-Janeyroda Yay Olimpiya Oyunlarında nailiyyətlərimizlə Azərbaycanın həm də idman ölkəsi olduğunu dönə-dönə sübut edəcəyik!

Artıq birinci Avropa Oyunları ərəfəsindəyik. İyunun12-dən 28-dək bütün dünyanın diqqəti istənilən beynəlxalq əhəmiyyətli tədbiri layiqincə təşkil etməyə və keçirməyə qadir Azərbaycana yönələcək. 6 mindən çox idmançının mübarizə aparacağı bu mötəbər yarış Azərbaycanın potensialını bir daha dünyaya nümayiş etdirəcək. Xatırladaq ki, "Bakı-2015" ilk Avropa Oyunları çərçivəsində keçiriləcək 20 idman növündən 11-i "Rio-2016" Yay Olimpiya Oyunları üçün müxtəlif kvalifikasiya imkanları nəzərdə tutur. İlk Avropa Oyunlarında Azərbaycan 441 nəfərlik heyətlə təmsil olunacaq ki, onların da 291 nəfəri atletlərimizdir. Yarışlarda iştirak edəcək idmançılar kimi, qəlbində Azərbaycan sevgisi olanların da hər biri sevinc və həyəcanla oyunların başlamasını gözləyir. Gənc, müstəqil Azərbaycanın ev sahibliyi etdiyi bu mötəbər idman tədbirinin də yüksək səviyyədə keçəcəyinə heç kəsin, hətta bizi istəməyənlərin də şübhəsi yoxdur.

Birinci Avropa Oyunlarında himnimizin səsləndirilməsilə üçrəngli bayrağımızın göylərə qaldırıldığını təkrar-təkrar seyr etmək, müxtəlif idman yarışlarında qızıl medallarımızın sevincini yaşamaq arzusu ilə:

*Rasif TAHİROV*

### "İpək yolu" nəqliyyat dəhlizi ilə daşınmaların həcmi artır

**Cari ilin birinci rübündə "İpək yolu" nəqliyyat dəhlizinin Azərbaycan hissəsində 13,5 milyon ton yük, 80,9 milyon nəfər və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,9 faiz çox sərnişin daşınmışdır.**

Dəhlizdə daşınmış yüklərin 54,7 faizi avtomobil, 31,4 faizi dəmir yolu,13,9 faizi dəniz nəqliyyatının payına düşmüş, avtomobil nəqliyyatında 5,8 faiz artım qeydə alınmışdır. Daşınmış yüklərin 19,9 faizini və ya 2,7 milyon tonunu tranzit yüklər təşkil etmişdir.

Yük daşımaları fəaliyyətindən 130,7 milyon manat, sərnişin daşınmasından isə 30 milyon manat gəlir əldə olunmuş və gəlir müvafiq olaraq 9,1 faiz və 14,6 faiz artmışdır.

## 9 ildə Azərbaycan nefti ilə 2850-dən çox tanker yüklənib

**9 il əvvəl - 2006-cı il mayın 28-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri Xəzərin Azərbaycan sektorundan hasil edilmiş nefti Ceyhan terminalına çatdırdı. BTC ilə axan bu ilk neft bir il yol getmişdi. Belə ki, kəmərin doldurulmasına Xəzər sahilindəki Səngəçal terminalından 2005-ci ilin may ayında başlanmışdı.**

BTC-nin Ceyhana gətirdiyi ilk neft "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi layihəsi çərçivəsində əsasən "Azəri"dən çıxarılmışdı. Həmin gün Prezident İlham Əliyev bu hadisə münasibətilə Azərbaycan xalqını təbrik etdi və neftin Ceyhana çatmasının məhz Respublika Gününə təsadüf etdiyini yüksək dəyərləndirdi.



Bu hadisədən bir həftə sonra - iyunun 4-də isə BTC-nin nəql etdiyi neftlə yüklənmiş ilk tanker dünya bazarlarına yola salındı. Həmin vaxtdan bəri BTC çox uğurlara imza atıb. Başqa sözlə, onun uğuru bu illər ərzində ahəngdar və təhlükəsiz işləməsidir.

Xatırladaq ki, BTC üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçərək 1768 kilometr məsafə qət edir. Gündə bir milyon barel neft nəql etmək gücündə layihələndirilsə də, sonralar onun gündəlik ötürmə qabiliyyəti 20 faiz artırılaraq 1,2 milyon barelə çatıb. İstismarına başlandığı vaxtdan indiyədək BTC vasitəsilə ümumilikdə 2,2 milyard barel, yaxud 289 milyon tondan çox xam neft ixrac olunub. Ceyhanda 2850-dən çox tanker yüklənib və dünya bazarlarına göndərilib.

Bu ilin birinci rübü ərzində BTC 9 milyon tona yaxın (69 milyon barel) xam neft nəql edib. Bu neft Ceyhanda 96 tankerə yüklənib. Hazırda kəmər Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının neftini və "Şahdəniz" dən çıxarılan kondensatı daşıyır. Bundan əlavə, BTC-yə müəyyən həcmdə Türkmənistan və Qazaxıstan nefti də vurulur.

# Gəmiçilik XXII Beynəlxalq “Xəzər Neft və Qaz 2015” sərgisində iştirak etdi



















**İyunun 2-5-də “Bakı Ekspo Mərkəzi”ndə XXII Beynəlxalq “Xəzər Neft və Qaz 2015” (“Caspian Oil and Gas 2015”) sərgisi keçirildi. Dünya neft-qaz hasilatı sənayesinin beşiyi sayılan ölkəmizdə ilk belə sərgi Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə 1994-cü ilin mayında keçirilib və sonralar ənənəvi xarakter alıb.**

“İteca Caspian” və onun britaniyalı tərəfdaşı “İTE Group” şirkətlərinin təşkilatçılığı və Azərbaycan dövlətinin hərtərəfli dəstəyi ilə gerçəkləşən XXII sərgi dünyanın neft sektorunu təmsil edən iri istehsalçı və təchizatçı şirkətləri bir yerə toplamışdı. 29 ölkənin sərgiyə qatılan 315 şirkəti arasında “Əsrin müqaviləsi”nin, ondan sonra həyata keçirilən layihələrin iştirakçıları da vardı. Sərgidə MDB və Şərqi Asiyadan olan şirkətlərin sayı bu il daha çox idi.

“Xəzər Neft və Qaz 2015” sərgisinin ekspozisiyası neft hasilatı və enerji daşıyıcılarının nəql edilməsi sahəsində innovativ texnologiyalar, neft və qazın saxlanması sistemlərinin təmin edilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi imkanları və sair tematik bölmələrdən ibarət idi.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ayrılmaz atributu texnoloji innovasiyaların nümayiş etdirilməsi olan sərgidə Alyans partnyoru Caspian Marine Services şirkəti ilə birgə stendlə təmsil olunmuşdu. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev və qurumun digər rəhbər şəxsləri stendimizlə yanaşı, birgə layihələr üçün maraqlı olan şirkətlərin də təqdimatları ilə yaxından tanış oldular.

Ekspozisiyalar, şəkillər, maketlər, videoçarx... gəmiçiliyin zəngin tarixi, yük daşınması, dənizdə neft hasilatı ilə bağlı mühüm dəniz nəqliyyatı xidmətləri təklif edən donanmaları haqqında çox şey deyirdi. Üstəlik sərgidəki nümayəndələrimiz ziyarətçilərin “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti ilə bağlı istənilən suallara dolğun cavab verirdilər.

**Tahir DADAŞOV**

# Dəniz nəqliyyatına dair saziş imzalanıb

**Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası (ARDDA) ilə Polşa Respublikasının İnfrastruktur və İnkişaf Nazirliyi arasında dəniz nəqliyyatına dair saziş imzalanıb.**

ARDDA-nın mətbuat xidmətindən bildiriblər ki, Administrasiyanın rəisi Qüdrət Qurbanovun başçılıq etdiyi nümayəndə heyəti Polşa Respublikasının Varşava şəhərində səfərdə olub.

Səfər çərçivəsində mayın 20-də “Azərbaycan Respublikası hökuməti ilə Polşa Respublikası hökuməti arasında dəniz nəqliyyatına dair saziş” imzalanıb. Sazişi Azərbaycan Respublikası tərəfindən Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov, Polşa Respublikası tərəfdən İnfrastruktur və inkişaf nazirinin müavini Dorota Piç imzalayıblar.

Sazişin əsas məqsədi Azərbaycan Respublikasının ticarət gəmiçiliyi və dəniz nəqliyyatı sahəsi üzrə fəaliyyət göstərən müəssisə və təşkilatları ilə Polşa Respublikasının müvafiq müəssisə və təşkilatları arasında əlaqələrin və əməkdaşlığın inkişafına stimul vermək, bu inkişafı sürətləndirmək, tərəflərin limanları arasında dənizlə yüklərin daşınmasının inkişafına mane ola biləcək amillərin aradan qaldırılması üzrə əməkdaşlığı təmin etməkdir.

Sazişdə iki tərəf arasındakı münasibətlərdə ayrı-seçkiliyə yol verilməməsi və azad rəqabət, dəniz nəqliyyatının inkişaf etdirilməsi, limanlarda, daxili sularda və ərazi dənizlərində gəmilər üçün yaradılan şərait, dəniz nəqliyyatının asanlaşdırılması, gəmi sənədlərinin qarşılıqlı tanınması, cinayət baş verdiyi zaman tətbiq olunan prosedurlar, dənizdə baş verən hadisələr, texniki əməkdaşlıq, beynəlxalq öhdəliklər, mübahisələrin həlli barədə müddəalar da yer alıb. Həmçinin, sazişdə limanlara sərbəst giriş-çıxış, lövbərə durma yerinin təyin edilməsi, liman vasitələrindən maneəsiz istifadə, yük əməliyyatları, sərnişinlərin mindirilməsi və düşürülməsi, naviqasiya üzrə xidmətlərin istifadəsi və digər adi kommersiya əməliyyatlarının icrası ilə bağlı hər bir tərəfin öz gəmilərinə yaratdığı imkanları digər tərəfin gəmilərinə də yaratması barədə müddəalar əks olunub ki, bu da Azərbaycan bayrağı altında üzən gəmilərin Polşaya, Polşa bayrağı altında üzən gəmilərin isə Azərbaycana yük və sərnişin daşınması prosesinə daha intensiv cəlb olunmasına öz töhfəsini verəcək.

Eyni zamanda, görüşdə Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında dəniz nəqliyyatı sahəsində əməkdaşlığın inkişafı perspektivləri barədə söhbət aparılıb, qeyd olunan sahədə qarşılıqlı əlaqələrin daha da gücləndirilməsinin zəruriliyi vurğulanıb.

## Mühacirlərə dair kvota ilə razılaşmır

**Rəsmi London Avropa İttifaqının (Aİ) mühacirlər və qaçqınlarla bağlı fəaliyyətinə müharibə elan edib. Böyük Britaniyanın Daxili İşlər Nazirliyinin başçısı Tereza Mey Aİ-yə qanunsuz yolla keçən hər kəsin İttifaq ərazisindən çıxarılmasında israrlı olduqlarını bildirib.**

“Euronews” telekanalı xəbər verir ki, nazirin sözlərinə görə, qaçqınlara sığınacaq verilməsi qeyri-qanuni mühacir axınının artmasına şərait yaradacaq. Avropa İttifaqının planında isə qaçqınları Aİ-yə üzv dövlətlər arasında kvotalara uyğun olaraq yerləşdirilməsi yer alır. Bu kvotalar ölkələrin ümumi daxili məhsulu və əhalinin sayına görə müəyyən olunacaq. Beləliklə də varlı ölkələr daha çox mühacir qəbul edəcək. Planda, həmçinin qaçqınları Afrikadan Avropa sahillərinə daşımaqla məşğul olan gəmilərin məhv edilməsi də nəzərdə tutulur. Eyni zamanda, Brüssel Aralıq dənizində Avropaya üz tutan mühacirlərin xilas edilməsi əməliyyatlarının aparılması üçün nəzərdə tutulan büdcənin artırılmasını planlaşdırır.

# Dövlət bayrağından düzgün istifadə edilməlidir

Üçrəngli dövlət bayrağımız qürur mənbəyimizdir. Bu bayrağa dərin hörmət və ehtiram hissi ilə yanaşdığımız kimi, ondan istifadə qaydalarına da ciddi əməl etməliyik. Son illərdə Azərbaycan beynəlxalq siyasi, humanitar və idman tədbirlərinin keçirildiyi məkana çevrilib. Bu tədbirlərdə həmişə dövlət bayrağından istifadə olunur. Lakin bəzən dövlət bayrağından istifadə zamanı yanlışlıqlara yol verilir. Qarşıdan çox mühüm tədbir - “Bakı-2015” birinci Avropa Oyunları gəlir. İyunun 12-dən 28-dək Avropanın idman nəbzi Azərbaycanda döyünəcək. “Bakı-2015”in yarışlarını izləmək üçün paytaxtımıza dünyanın bir çox ölkələrindən on minlərlə qonaq səfər edəcək.

Avropa Oyunlarına yüksək səviyyədə hazırlıq görən Azərbaycanda qarşımızda duran ümdə vəzifələrdən biri də küçə və prospektlərimizdə, idman arenalarında, azarkeşlərin başları üzərində dalğalanacaq dövlət bayrağımızdan düzgün istifadə etməkdir.

Ölkəmizdə dövlət bayrağından istifadə qaydaları barədə mükəmməl qanunvericilik bazası yaradılıb. 2004-cü ildə “Azərbaycan Respublikası dövlət bayrağının istifadəsi qaydaları haqqında” Qanun qəbul edilib. 2005-ci ildə Nazirlər Kabinetinin qərarı ilə “Azərbaycan Respublikası dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı Qaydaları” təsdiq olunub. 2013-cü ildə isə Nazirlər Kabineti “Azərbaycan Respublikası dövlət bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı Qaydaları”nda dəyişiklik edilməsi haqqında” qərar qəbul edib.

AZƏRTAC dövlət bayrağından düzgün istifadə variantlarını aşağıdakı rəngli fotoşəkillər vasitəsilə təqdim edir:



Mərasimlər və digər təntənəli tədbirlər zamanı dövlət bayrağımız digər dövlətlərin, beynəlxalq təşkilatların, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, müəssisə və idarələrin bayraqları ilə birgə qaldırılırsa (asılırsa) və ya yerləşdirilirsə, qarşıdan baxanda Azərbaycan Respublikasının dövlət bayrağı həmin bayraqlardan solda olmalıdır.



Dövlət bayrağı ya bayraq dirəyinin, ya da xüsusi tutqaclara bərkidilən dəstək üzərində qaldırılır. Bu zaman bayrağın mavi zolağı dirəyin uc tərəfi istiqamətində olmalıdır.



Dövlət bayrağı binanın divarına dirəksiz şaquli vəziyyətdə asıldıqda və ya xüsusi tutqaclara bərkidildikdə onun mavi zolağı qarşıdan baxarkən sol tərəfdə yerləşməli, ayla ulduz isə üzüaşağı olmalıdır.



Dövlət bayrağı binanın divarına dirəksiz üfüqi vəziyyətdə asıldıqda və ya xüsusi tutqaclara bərkidildikdə mavi zolaq qarşıdan baxarkən yuxarıda olmalı, ayla ulduz isə sağ tərəfə baxmalıdır.





Kiçik ölçülü dövlət bayrağı masaların, kürsülərin üstündə xüsusi oturacağı olan şaquli milə bərkidildikdə və yaxud əldə tutulduqda da mavi zolaq yuxarıda yerləşməlidir.






Dövlət bayrağı tribunalarda tamaşaçıların, yürüşlərdə iştirakçıların və qalib idmançıların əllərində üfüqi vəziyyətdə dirəksiz tutularkən də mavi zolaq yuxarıda olmalıdır.

*Azərbaycan Respublikasının dövlət bayrağından düzgün istifadə edilməsi hər kəsin vətəndaşlıq borcudur.*

# Monteneqro Respublikasının nümayəndələri ADDA-da

**Azərbaycan Respublikasında rəsmi səfəri zamanı Monteneqro Respublikasının təhsil naziri Sanja Vlahovic və Monteneqro Universitetinin Dənizçilik fakültəsinin dekanı, professor Daniko Nikoliç Azərbaycan Dövlət Dəniz Akademiyasında olmuş, Akademiyanın rəhbərliyi - rektor Rasim Başirov, tədris və tərbiyə işləri üzrə prorektor Çingiz Əliyev və elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektor Zahid Şarifovla görüşmüşlər.**











Qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılan görüşdə təhsilin cəmiyyətin inkişafında mühüm rol oynadığı diqqətə çatdırılıb, Monteneqro Respublikası ilə Azərbaycan Respublikası arasında bütün istiqamətlərdə, o cümlədən təhsil sahəsində əlaqələrin möhkəmləndirilməsinin zəruriliyi vurğulanıb və bu əlaqələrin inkişafına əminlik ifadə olunub.

Hər iki təhsil ocağı arasında yeni bağlanmış əməkdaşlıq haqqındakı müqaviləyə əsasən tələbə və professor-müəllim mobilliyi, elmi-pedaqoji kadrların hazırlanması və tədris-metodiki vəsaitlərin mübadiləsi sahəsində birgə fəaliyyət proqramı müzakirə olunmuş və qəbul edilmişdir.

Azərbaycan Dövlət Dəniz Akademiyası ilə yaxından tanış olduqdan sonra Monteneqro Respublikasının təhsil naziri Sanja Vlahovic ürək sözlərini "Fəxri qonaqlar kitabı"nda qeyd etmişdir.

**Tahir DADAŞOV**

# Azərbaycan əhalisinin sayı 9611,7 min nəfərə çatmışdır

**2015-ci il mart ayının 1-i vəziyyətinə Azərbaycan Respublikasının əhalisinin sayı 9611,7 min nəfərə çataraq ilin əvvəlindən 18,7 min nəfər və ya 0,2 faiz artmışdır.**



Dövlət Statistika Komitəsi bildirir ki, ölkə əhalisinin bir kvadratkilometrə düşən sıxlığı 111 nəfər təşkil edir. Əhalinin ümumi sayından 53,1 faizi şəhər, 46,9 faizi kənd sakinlərinin, 49,8 faizi kişilərin, 50,2 faizi isə qadınların payına düşür. Hazırda hər 1000 nəfər kişiyə 1009 nəfər qadın düşür.

Son illər ərzində ölkədə doğum səviyyəsi yüksək olaraq qalmaqda davam edir və cari ilin yanvar-fevral ayları ərzində doğulanların sayı ölənlərin sayından 18,5 min nəfər çox olmuşdur. Belə ki, cari ilin ilk iki ayı ərzində ölkədə 27,9 min, yaxud hər gün orta hesabla 473 körpə doğulmuş, əhalinin hər 1000 nəfərinə hesabı ilə bu göstərici 18,2 təşkil etmişdir. Doğulanların 53,6 faizi oğlan, 46,4 faizi isə qız uşaqlarından ibarət olmuşdur.

İlin əvvəlindən ölkədə 9,4 min ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə hesabı ilə ötən ilin müvafiq dövrü ilə müqayisədə ölüm səviyyəsi 7-dən 6,1-ə qədər azalmışdır.

Cari ilin iki ayı ərzində rəsmi orqanlar tərəfindən ölkədə 11,1 min nikah və 2,1 min boşanma halları qeydə alınmışdır.

Cari ilin yanvar-fevral ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən Azərbaycana daimi yaşamaq üçün 227 nəfər gələn və 119 nəfər ölkədən gedən qeydə alınmışdır.

## Buz qatının əriməsi dəniz səviyyəsinin artmasına ciddi təsir edəcək

**Antarktida qitəsinin Antarktida yarımadasındakı ən böyük buz qatı okeanın istiləşməsi və temperaturuna görə getdikcə nazilməkdədir. Bu barədə "The Guardian" həyəcan təbili çalan yazı yazıb. "British Antarctic Survey" (BAS) qurumunun araşdırmasına görə, buz qatının əriməsi dəniz səviyyəsinin artmasına ciddi təsir edəcək.**

"Larsen C" buz qatı Uelsdən 2,5 dəfə böyükdür. Peyk vasitəsilə aşkara çıxarılıb ki, "Larsen C" 1998-2012-ci illərdə özünün qalınlığını 4 metr itirib. İndiyədək alimlər bilmirdilər ki, itki yuxarıdan, yoxsa aşağıdan baş verir. Amma yeni araşdırma ortaya çıxarıb ki, əriмə daha çox aşağıdan baş verir və həmin buz qatı hər il aşağıdan 28 sm qalınlığını itirir. Bu nazilməyə görə, artıq buz qatları çökməyə meyillənib.

O da qeyd edilir ki, yarımada dünyada ən sürətlə istiləşən yerlərdən biridir. Həmçinin , istiləşən havaya görə, buz qatı yuxarıdan da ildə 3,7 sm nazikləşir.

Bildirilir ki, buz qatının əriməsilə, ilk növbədə, daha çox sahilyanı ölkələr və yaşayış əraziləri risklə üzləşə bilərlər.

**İLKİN**

## Brakonyerliyə görə 41 xarici gəmi batırılıb

**"Röyter" agentliyi xəbər verir ki, İndoneziyanın hərbi dəniz qüvvələri ölkənin ərazi sularında brakonyerliyə görə müsadirə olunmuş 41 balıqçı gəmisini məhv etmişdir. .**

Məlumata görə, bu tədbirlər ölkənin yeni prezidenti Coko Vidodonun elan etdiyi qanunsuz balıq ovuna qarşı cəzanın gücləndirilməsi üzrə kampaniya çərçivəsində həyata keçirilir.

Bildirilir ki, gəmilər eyni vaxtda planetin ən iri arxipelaqının hövzəsinin dörd rayonunda dinamit vasitəsilə batırılmışdır. Brakonyerlərin daha 22 gəmisinin batırılacağı haqqında qərar qəbul edilib

İndoneziyalı rəsmilərin dediklərinə görə, hər il, ilk növbədə Vyetnam, Çin, Malayziya, Tailand və Filippindən 5,4 min gəmi qanunsuz şəkildə İndoneziyanın ərazi sularına daxil olur. Bu qanunsuz fəaliyyət nəticəsində ölkəyə hər il 300 trilyon rupi (24,7 milyard dollar) zərər dəyir.

***Tahir DADAŞOV***





## Səyahət layneri saya oturub...

**"Norwegian Dawn" səyahət layneri Bermud adaları yaxınlığında okeanın dayaz hissəsində saya oturub.**

Gəminin sahibi "Norwegian Cruise Line" şirkətinin yaydığı məlumatda həmçinin heyət üzvləri və sərnişinlər arasında xəsarət alanların olmadığı vurğulanır. Şirkət nümayəndəsinin sözlərinə görə, laynerdə yanacaq sızması müşahidə olunmayıb. Dalğıclar gəminin alt hissəsində ola biləcək mümkün zədələrin axtarışına cəlb edilib. ABŞ-ın Boston şəhərinə yollanan "Norwegian Dawn" laynerinin göyərtəsində hadisə zamanı 2675 sərnişin və 1062 heyət üzvü olub. Bermud adalarındakı limandan çıxdıqdan sonra gəminin mühərrikləri qəflətən sönüb və o, saya oturub.

# Yarış qalibləri mükafatlandırılıb









**Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi xidmətinə daxil olan müəssisə və təşkilatlarda idmanın kütləviliyinə nail olmaq üçün müntəzəm müxtəlif tədbirlər həyata keçirir. Təsadüfi deyildir ki, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə dəniz nəqliyyatı müəssisə və təşkilatları arasında keçirilən stolüstü oyunların təşkilatçısı da məhz DNİHİRK idi.**

Gərgin idman mübarizəsi şəraitində keçən yarışlarda "Zığ" Gəmi Təmiri Zavodunun nümayəndələri daha yaxşı çıxış etmişlər. Gəmi təmirçiləri şahmat və dama yarışlarında ən yüksək göstəriciyə nail olmuş, stolüstü oyunların digər növlərində - bilyard yarışında ikinci, nərd yarışında isə üçüncü yeri tutmuşlar.

Xəzər Dəniz Neft Donanmasının idmançıları nərd, "Bibiheybət" Gəmi Təmiri Zavodunun təmsilçiləri tennis, Dəniz Nəqliyyatı Donanmasının nümayəndələri isə bilyard yarışlarında birinci yerə layiq görülmüşlər.

Xəzər Dəniz Neft Donanmasının stolüstü oyun həvəskarları şahmat və dama oyunlarında ikinci, bilyard yarışlarında isə üçüncü yerlə kifayətlənmişlər. "Bibiheybət" Gəmi Təmiri Zavodunun idmançıları nərd oyunlarında ikinci, şahmat və dama yarışlarında üçüncü yeri tutmuşlar. İstehsalat Xidmətləri İdarəsinin nümayəndələri tennis yarışında üçüncü yerlə kifayətlənmişlər.

Stolüstü oyunlarda fərqlənənlər Dəniz Nəqliyyatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Səməd Allahverdiyevin əmri ilə mükafatlandırılmışdır. İlk üç yeri tutanlara kubok, Fəxri Fərman və pul mükafatları təqdim olunmuşdur.

**Tahir DADAŞOV**

# Hər şey uşaqların ürəyincə idi





**Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə aztəminatlı ailələrin uşaqları üçün dəniz gəzintisi təşkil edib.**

Tədbirdə Səbail rayonunun orta məktəblərində təhsil alan şagirdlər, məktəbəqədər müəssisələrində böyüyən körpələr, sağlamlıq imkanları məhdud uşaqlar, Xətai rayonundakı SOS uşaq kəndinin sakinləri və onların valideynləri iştirak ediblər.

Qayğıya və diqqətə daha çox ehtiyacı olan uşaqlar əvvəlcə dəniz gəzintisinə çıxacaqları "Müslüm Maqomayev" sərnişin gəmisi, dahi müğənninin katamarandakı xatirə guşəsi ilə yaxından tanış olublar, həyat və yaradıcılığından bəhs edən sənədli filmə tamaşa ediblər.

Gəmi ilə dəniz gəzintisi zamanı isə azyaşlılar və yeniyetmələr üçün müxtəlif əyləncəli oyunlar və müsabiqələr təşkil edilib. Səyahət başa çatdıqdan sonra təşkil edilən əyləncəli proqramlar da xüsusi diqqətə və qayğıya daha çox ehtiyac duyan uşaqların ürəyincə olub.

**"DƏNİZ"**





# Oturaq həyat tərzinin fəsadları

**Gənclərin əksəriyyəti oturaq həyata meyllidir. Bunun səbəblərindən biri internetdir. Artıq texnologiyanın inkişafı insana əksər işlərini oturduğu yerdən həll etməyə imkan verir. Amma uzun müddət kompyuter arxasında oturmağın ziyanı da az deyil.**



Yaponiya alimlərinin araşdırmalarına görə, günün çox hissəsini oturaq vəziyyətdə keçirirsinizsə, digər vaxtlar hərəkət etsəniz belə, xəstəlik riski aradan qalxmır. İnsanlar həftədə 64 saatı oturaq vəziyyətdə, 28 saatı ayaq üstə durmaqla, 11 saatı isə gəzərək keçirirlər. Bu da gündə təxminən 9 saat oturmaq deməkdir. Əzələlər, xüsusən ayaq əzələləri hərəkətsiz qalanda bədəndə qan dövranı azalır. Bu zaman daha az qan, şəkər və yağ istifadə edilir, bu da ürək, şəkər xəstəlikləri riskini artırır. Bununla yanaşı, hərəkətsizlik insanlarda psixoloji gərilmələrə, təfəkkür və təxəyyül zəifliyinə gətirib çıxarır. Oturaq həyat adamların sinirlərini pozur, belələri özlərindən tez çıxırlar. Bütün gününü kompyuter arxasında keçirənlər bəzən uzun müddət depressiyadan çıxa bilmirlər. Onlar pessimist fikirlərə qapılır və bu fikirlər isə həyatlarını tamamilə dəyişir. Özlərini elə aparırlar ki, sanki, çöldə həyat yoxdur. Həyat elə internetdən, kompyuterdən ibarətdir.

Oturaq həyat tərzi keçirən insanlar gün ərzində hər saatdan bir mütləq gəzməlidirlər. 6 saatdan artıq oturan kişilərdə gənc yaşda həyatdan köçmək riski 20, qadınlarda isə 40 faizdir. 45-69 yaşları əhatə edən 82 min kişi üzərində aparılan araşdırma zamanı isə bəlli olub ki, iş saatından sonra da oturaq həyat tərzi keçirənlərdə ürək çatışmazlığı riski daha yüksəkdir. Bunun qarşısının alınması üçün nahar fasilələrində mütləq gəzmək, qaçmaq, idman etmək lazımdır.

Psixoloqlar hesab edirlər ki, oturaq həyat tərzi keçirən insanlar sadə hərəkətlərlə problemi az da olsa aradan qaldıra bilərlər.

Tez-tez başınızı sağa-sola hərəkət etdirin, lift əvəzinə pilləkəndən istifadə edin, iş yoldaşlarınızla telefonla yox, yanına gedərək danışın.

Stolda əyilib oturmaq duzgün deyildir, bel, dirsək və dizin 90 dərəcə olmasına diqqət etmək lazımdır. Beliniz və stulunuz arasında boşluq buraxıb və arxaya söykənib oturmaq yalnışdır.

Oturarkən, hətta saqqız çeynədiyinizdən daha az enerji sərf edirsiniz.

Alimlər xəbərdarlıq edirlər ki, oturaq vəziyyətdə işləyənlər daha tez-tez ürək xəstəliklərinə düçar olurlar. Gün ərzində 6 saatdan artıq oturaq vəziyyətdə işləməyə məcbur olanların müxtəlif xəstəliklər üzündən erkən dünyalarını dəyişmə ehtimalları böyükdür.

**Tahir DADAŞOV**

*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Конференция, линейная конференция / Konfrans, xətti konfrans
### CONFERENCE, CONFERENCE LINES

Объединение перевозчиков, эксплуатирующих суда, или судовладельцев в группу, состоящую из двух и более перевозчиков (судовладельцев), осуществляющих перевозки грузов по общим фрахтовым ставкам на определенных направлениях или на линиях, оговоренных в пределах географического района. Кроме согласованной ставки некоторые Конференции устанавливают Пул.

Линейная конференция препятствует деятельности независимых национальных судоходных линий, особенно в развивающихся странах, нанося им серьезный экономический ущерб. Принятие Кодекса поведения линейных конференций направлено на упорядочение мирового линейного судоходства, в частности, посредством регулирования отношений между конференциями и национальными судоходными линиями стран, внешнюю торговлю которых линейные конференции обслуживают, отношений между грузоотправителями, организациями грузоотправителей и конференциями и др.

Müəyyən istiqamətlərdə və ya coğrafi rayonun hüdudlarında şərtləşdirilmiş xətlərdə vahid fraxt dərəcələri ilə daşınmaları həyata keçirən, gəmiləri istismar edən daşıyıcıların, yaxud gəmi sahiblərinin iki və daha çox daşıyıcıdan (gəmi sahibindən) ibarət qrup şəklində birliyi. Bəzi Konfranslar razılaşdırılmış fraxt dərəcələrindən başqa Pul (kartelin xüsusi növü) təşkil edirlər.

Xətti konfrans müstəqil milli gəmiçilik xətlərinin fəaliyyətinə maneçilik törədir, xüsusilə inkişaf etməkdə olan ölkələrdə - onlara ciddi iqtisadi zərər vurur. Xətti konfransların davranış Məcəlləsinin qəbulu dünya xətti gəmiçiliyinin nizamlanmasına yönəldilmişdir. Burada xətti konfransların xarici ticarətinə xidmət göstərdikləri ölkələrin milli gəmiçilik xətləri ilə konfranslar arasında, habelə yükgöndərənlərlə, yükgöndərənlərin təşkilatları və konfranslar arasındakı münasibətlərin tənzimlənməsi və s. məsələlər öz əksini tapmışdır.

### Конференция ООН по торговле и развитию, UNCTAD / Ticarət və inkişaf üzrə BMT Konfransı, UNCTAD
### UNITED NATIONS CONFERENCE ON TRADE AND DEVEL OPMENT, UNCTAD

Конференция ООН по торговле и развитию (UNCTAD) создана в 1984 г. В нее входят все государства - члены ООН, а также члены ее специализированных учреждений и МАГАТЭ. Основные задачи (UNCTAD): содействие развитию международной торговли; обеспечение стабильного мира и равноправного, взаимовыгодного, всестороннего сотрудничества между государствами; выработка рекомендаций, принципов, организационно-правовых условий и механизмов функционирования современных международно-экономических отношений; участие в координации деятельности других учреждений системы ООН в области экономического развития и налаживания хозяйственных связей. Деятельность ЮНКТАД охватывает широкий круг вопросов: международной торговли сырьем, готовыми изделиями и полуфабрикатами; условия «невидимой» торговли (фрахтования морского транспорта, страхования, финансирования, кредитования внешней торговли и др.); передачи технологий; валютно-кредитных отношений и др.

Ticarət və inkişaf üzrə BMT Konfransı (UNCTAD) 1984-cü ildə yaradılmışdır. Ona BMT-yə üzv olan bütün dövlətlər, habelə BMT-nin ixtisaslaşdırılmış müəssisələri və MAQATE-nin üzvləri daxildir. UNCTAD-ın əsas vəzifələri bunlardır: beynəlxalq ticarətin inkişafına köməyin göstərilməsi; dövlətlər arasında sabit sülhün və bərabərhüquqlu, qarşılıqlı, faydalı, hərtərəfli əməkdaşlığın təmin edilməsi; müasir beynəlxalq-iqtisadi münasibətlərin fəaliyyət göstərməsi ilə bağlı tövsiyələrin, prinsiplərin, təşkilati-hüquqi şərtlərin və mexanizmlərin hazırlanması; iqtisadi inkişaf və təsərrüfat əlaqələrinin qurulması sahəsində BMT sisteminin digər müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsində iştirak etmək. UNCTAD-ın fəaliyyəti çoxsaylı məsələləri əhatə edir: xammal, hazır məmulat və yarımfabrikatların beynəlxalq ticarətini; «görünməz» ticarətin (dəniz nəqliyyatını fraxtetmə, sığortalama, maliyyələşdirmə, xarici ticarətin kreditləşdirilməsi və s.) şərtlərini; texnologiyaların ötürülməsini; valyuta-kredit münasibətlərini və s.

### Корабельный сбор / Gəmi rüsumu
### SHIP'S DUES, TONNAGE DUES

Основной вид портовых сборов, взимаемых с судна при посещении порта. Корабельный сбор устанавливается: за БРТ (брутто регистровой вместимости), или за НРТ (нетто регистровой вместимости) либо за объем судна (LxBxH) и взимается отдельно за вход в порт и выход из него. Обычно суда линейного плавания пользуются льготами. Льготами также пользуются суда каботажного плавания, пассажирские, исследовательские и другие суда. В портах некоторых стран этот сбор носит название тоннажный.

Limana gələrkən gəmidən alınan liman rüsumlarının əsas növü. Gəmi rüsumu BRT-yə (brutto registr tona) və ya NRT-yə (netto registr tona), ya da gəminin həcminə (LxBxH) görə müəyyənləşdirilir və limana daxil olmağa, oradan çıxmağa görə ayrı-ayrılıqda alınır. Adətən, xətti gəmilər güzəştlərdən istifadə edir. Kabotajda işləyən gəmilər, sərnişin, tədqiqat gəmiləri habelə digər gəmilər də güzəştlərdən istifadə edir. Bəzi ölkələrin limanlarında bu, tonnaj rüsumu adlandırılır.

### Коринфский канал / Korinf kanalı
### CARINTHIAN CANAL

Международный канал, соединяющий Эгейское и Ионическое моря. Пролегает по территории Греции через Коринфский перешеек. Сокращает путь из Адриатического моря в Греческий порт Пирей примерно на 200 миль и достаточно интенсивно используется для международного судоходства. Режим прохода судов через Коринфский канал регулируется внутренним правом Греции и не регламентируется никакими международными соглашениями. Коринфский канал открыт для торговых судов всех стран.

Egey və İoni dənizlərini birləşdirən beynəlxəlq kanal. Korinf bərzəxini kəsib keçən kanal Yunanıstan ərazisindədir. Adriatik dənizindən Yunanıstanın Pirey limanına yolu təxminən 200 mil qısaldır və beynəlxalq gəmiçilik üçün kifayət qədər intensiv istifadə edilir. Korinf kanalından gəmilərin keçmə rejimi Yunanıstanın daxili hüququ ilə tənzimlənir və heç bir beynəlxalq sazişlə nizamlanmır. Korinf kanalı bütün ölkələrin ticarət gəmiləri üçün açıqdır.

### Корпорация Ллойда / Lloyd korporasiyası
### CORPORATION OF LLOYD'S

Международная страховая корпорация, крупнейшее страховое объединение Великобритании. Образована в 1734 г. как частная организация в доме Ллойда по инициативе судовладельцев и грузовладельцев, которые впервые начали страховать грузы от морских рисков. С 1871 г. официально зарегистрирована как страховая корпорация. Проводит все виды имущественного и личного страхования, включая операции, связанные с выдачей гарантий. Состоит из ряда синдикатов. Для вступления необходимо внесение депозита, от суммы которого зависит размер участия в страховании. Размещение страхований осуществляется аккредитованными при корпорации брокерами. Кроме проведения страховых операций, занимается консультационной деятельностью. Члены Ллойда отвечают по договорам всем своим имуществом. Если объект застрахован одновременно несколькими страховщиками Ллойда, то каждый из них несет ответственность в пределах страховой суммы, которую он принял на свой риск. На случай несостоятельности кого-либо из членов Ллойда существует централизованный гарантийный фонд.

Штаб-квартира располагается в Лондоне, где разрабатывается основная политика международного морского страхования. Служащие корпорации Ллойда называются агентами Ллойда.

Beynəlxalq sığorta korporasiyası, Böyük Britaniyanın iri sığorta birliyi. 1734-cü ildə Lloydun evində gəmi və yük sahiblərinin təşəbbüsü ilə yaradılmışdır. Bu özəl təşkilat ilk dəfə olaraq yükləri dəniz risklərindən sığortalamağa başlamış və 1871-ci ildə sığorta korporasiyası kimi rəsmi qeydiyyatdan keçmişdir. Əmlak sığortasının və şəxsi sığortanın bütün növlərini, o cümlədən zəmanətlərin verilməsi ilə bağlı əməliyyatları həyata keçirir. Bir sıra sindikatlardan ibarətdir. Daxil olmaq üçün depozit verilməlidir, sığortada iştirakın miqdarı depozitin məbləğindən asılıdır. Sığortaların yerləşdirilməsi korporasiya tərəfindən akkreditə edilmiş brokerlər tərəfindən həyata keçirilir. Sığorta əməliyyatlarının həyata keçirilməsindən başqa, korporasiya məsləhətçi fəaliyyəti ilə də məşğul olur. Lloyd üzvləri müqavilələr üzrə öz əmlakları ilə məsuliyyət daşıyırlar. Əgər obyekt eyni zamanda Lloydun bir neçə sığrotaçısında sığortalanmışsa, onlardan hər biri öz riskinə qəbul etdiyi sığorta məbləği hüdudunda məsuliyyət daşıyır. Lloydun hər hansı bir üzvünün sığorta ödənişi verməmk imkanına malik olmadığı hal üçün mərkəzləşdirilmiş zəmanət fondu mövcuddur.

Mənzil-qərargahı beynəlxalq dəniz sığortasının əsas siyasətinin işlənib hazırlandığı London şəhərindədir. Lloyd korporasiyasının qulluqçuları Lloydun agentləri adlandırılırlar.

### Косвенный общественный перевозчик / Vasitəli ictimai daşıyıcı
### NON VESSEL COMMON CARRIER OPERATOR

Перевозчик общественный, который, хотя и не имеет собственного судна, действует как перевозчик, издавая коносамент и букируя место на судне океанского плавания, включая контейнерные суда.

İctimai daşıyıcı, şəxsi gəmisi olmasa da, konosament dərc etməklə və konteyner gəmiləri də daxil olmaqla, okean üzmə rayonuna malik gəmidə əvvəlcədən yer götürməklə daşıyıcı kimi fəaliyyət göstərir.

### Котировка / Kotirovka
### QUOTATION

Информация о наличии грузов, нуждающихся в перевозке и свободном тоннаже, ищущих загрузки. Целью котировки является вызов предложения (оферта) судовладельца или фрахтователя. Выпускаются специальные бюллетени с котировкой.

Daşınmalı olan yüklərin və yüklənməsini istəyən boş tonnajın mövcudluğu haqqında informasiya. Kotirovkanın məqsədi gəmi sahibinin və ya fraxtedənin təklifini (ofertini) əldə etməkdən ibarətdir. Kotirovkanın dərc edildiyi xüsusi bülletenlər buraxılır.

*(Davamı var)*

## Oğullar anaların sağlamlığını əllərindən alırlar

Səkkiz il ərzində təqribən 100 min qadın üzərində aparılan müşahidələr göstərib ki, oğullar analarına daha çox narahatlıq yaradırlar. Oğlu olan və işləyən qadınlar avtomatik öldürücü ürək tutmaları riski olan qrupa düşürlər.



Niyə belədir? Bəlkə ona görə ki, oğullar ev işlərində analara kömək etməyə o qədər də meylli deyillər. Bu isə qadınlar üçün əlavə yüklənmə deməkdir. Oğlanlar həmçinin tez-tez narahatlıqlar yaradırlar.

İşləyən və minimum iki oğlu olan analar uşağı olmayan analarla müqayisədə ürəklə bağlı xəstəliklərə iki dəfə çox məruz qalıblar. Qızlar isə analarının sağlamlığı üçün heç bir təhlükə yaratmayıblar.

Turin Universiteti əməkdaşlarının fikrincə, qızlar analara böyük dəstək verirlər və onları çox az narahat edirlər. İstisna deyil ki, problemin kökləri hamiləlik dövrü ilə bağlı ola bilər (mümkündür ki, qızlarla müqayisədə daha böyük olan oğlan uşaqları ana ürəyi üçün əlavə yük yaradır).

## Bu boyda israfçılıq olar?

Əhalisi 10 milyon nəfərdən çox olan şəhərlər nə qədər su, istilik, elektrik enerjisi və digər resurslardan istifadə edir? Ekspertlərin sözlərinə görə, 1970-ci ildə Yerdə səkkiz, 2010-cu ildə 27 meqapolis olub, 2020-ci ilə kimi isə onların sayı təqribən 37 olacaq.

Bu cür meqapolislərdə dünya əhalisinin təqribən 6,7% əhalisi yaşasa da, onlar yer üzündə istehsal olunan elektrik enerjisinin 9,3 faizindən istifadə edir və 12,6 faiz tullantı əmələ gətirir.

ABŞ alimlərinin araşdırmalarına görə, Nyu-Yorkun əhalisi Yaponiya paytaxtının əhalisindən 12 milyon nəfər az olsa da, daha çox elektrik enerjisindən istifadə edir. Tokio həmçinin su təchizatının effektiv sisteminin quraşdırılmasında da kifayət qədər uğur qazanıb: borulardan su sızması səbəbindən şəhər yalnız 3% su itirir. Müqayisə üçün qeyd edək ki, sızıntılar üzündən Rio-de-Janeyro və San Paulu şəhərləri 50% suyu boş yerə axıdır.

## Keçəllikdən də pul qazanmaq olar



Londonun Şorediç səmtində yaşayan 2 uşaq atası, 26 yaşlı Mett Staffordun başı keçəlləşir və o, üzləşdiyi problemdən gəlir əldə etmək qərarına gəlir. Mett başının keçəlləşmiş yerində 215 dolların müqabilində reklam yerləşdirməyi təklif edir. Stafford təklifini internetin ən böyük onlayn-hərracı "eBay"da satışa çıxarır.

"Başımda 6x9 sm ölçülü yerdə döymə vasitəsilə reklam yerləşdirmək istəyənlər bu məbləği ödəsələr, razılaşa bilərik", - Mett yazıb.

# Elan






**01.04.2015-ci il tarixindən Bakı-Aktau-Bakı xəttində avtonəqliyyat vasitələrinin daşınması üçün Ro-Ro gəmisi həftədə bir dəfə səfər edir.**

**Avtonəqliyyat vasitələrinin sayı artdıqca səfərlərin də sayı müvafiq olaraq artırılacaqdır.**

**Bakı-Aktau-Bakı və Bakı-Türkmənbaşı-Bakı istiqamətlərində bərələr hər gün səfər edirlər.**

***Əlaqə telefonları: (+99412) 498 02 44; 404 38 59 (+99450) 317 84 44***

***E-mail: chartering@acsc.az; ruslan.gurbanov@acsc.az***

## YARIZARAFAT, YARIGERÇƏK

- Bir həqiqət min ehtimaldan yaxşıdır.
- Nə qədər ki, pişiyi ağaca dırmaşdırılan var, ağac kəsən də olacaq.
- Ola bilsin düz adamsan. Mən nə deyirəm ki?! Ola bilsin.
- Adam var, həqiqətən də xətrini çox istəyirəm. O, hətta nəvələrinə də nağıl danışmır.
- Bu bədxərcliklə səbrim ömrümün sonuna çətin çata.
- İy verəcəyi üçün heç kəsin yalanının üstünü açmırlar?
- Qadın var kişini ər edir, qadın var ərini nər!
- Dostun çoxluğu adamda arxayınçılıq, düşmənin çoxluğu sayıqlıq yaradır.
- Bu həyatda ən əvvəl, özünü tapmaq lazımdır.
- Həqiqət yalandan belə yaxşıdırsa, niyə daha çox yalan eşidirəm?
- "Sim-sim, qapını aç!"la uzağı öz evimizin qapısını aça bilərik.
- Bünövrəsi yalan üstündə qurulan evin damının nədən olmasının faydası yoxdur.
- Həkim xəstəni gözlədirsə, ya xəstə onun üçün "vacib adam" deyil, ya da xəstəliyi "gözləyə bilər".
- Həmkarlarının fərasətinə bələd olduqları üçün həkimlər heç vaxt özlərini xəstələrin yerinə qoymurlar?
- Ayaqlarım döyənək bağlayıb. Düz söz nə vaxta kimi məni düzdə qoyacaq?
- Əməllərinə baxanda, çox adamın dişindən çox, qulaqları çəkilməlidir.
- Nəzərə alsaq ki, həyatda ən çox qulaqlarımı kəsiblər, göz dəyməsin, qulaqlarım yaxşı qalıb.
- Görünməsə də, tənbəllərin əli həmişə işləyənlərin cibində olur.
- Nə vaxt biçəcəyin ən çox nə əkdiyindən asılıdır.
- Hətta sevindirmək xatirinə belə, dəvənin yüyənini uzunqulağın quyruğuna bağlamaq olmaz.
- Heç olmasa, arabir qabağımıza qoyub fikirləşdiyimizi nəzərə alsaq, papaq həmişə məsləhətdir.
- Ömrümüzün yarıdan çoxu adamları tanımağa gedir. Qalan yarısı da tanıyandan sonra təəssüfə.

*Rasif TAHİROV*

## Daha yaxşı dərk etmək üçün ayaqüstə dayanmaq lazımdır




A&M Texas Universiteti yanında Elmi-Tədqiqat Sağlamlıq Mərkəzindən olan alimlər qrupu müəyyən edib ki, dərs vaxtı ayaqüstə duran uşaqlar oturan uşaqlara nisbətən 12% daha diqqətli olurlar. Bu, şagirdlərə materialın mənimsənilməsinə sərf olunacaq vaxta yeddi dəqiqə qənaət etməyə imkan verir. Alimlər bu cür nəticələri məktəb ili ərzində ikinci-dördüncü siniflərin 300 şagirdini yoxlayaraq alıblar. Uşaqların diqqətliliyi onların suallara necə cavab vermələri, əllərini qaldırmaları, ümumi müzakirələrdə iştirak etmələri və qarşıya qoyulan vəzifələrdə özlərini aparmaları, məsələn, növbə gözləmədən danışmalarına uyğun olaraq dəyərləndirilib. İşləmək üçün istifadə edilən tribuna kimi masalar skamya ilə təchiz edilib və buda şagirdə öz arzusundan asılı olaraq ayaqüstə durmağa və ya oturmağa imkan verir. Professor Mark Benden əvvəlcə güman edib ki, bu cür masalarda istifadə uşaqların kökəlmə problemini həll edə bilər. Onun tədqiqatları göstərib ki, parta arxasında ayaqüstə duran şagirdlər dərs zamanı oturan uşaqlara nisbətən 15% daha çox kalori yandırır. Son tədqiqat zamanı Benden bu nəticəyə gəlib ki, fiziki aktivlik, hətta az olsa belə, əqli fəaliyyətə müsbət təsir göstərir. Professor qeyd edib ki, bundan təəccüblənməyib. "Dik duran masalar məktəblilərin davranış problemlərini həll etməkdə və dərs tapşırıqlarının həlli zamanı onların diqqətini artırmaqda kömək edəcək. Bu, uşaqların tapşırıqları müxtəlif üsullarla yerinə yetirməsi, o cümlədən ayaqüstə duraraq bu yolla monoton oturaq fəaliyyətini pozmaq sayəsində baş verəcək" - Benden bildirib.

"Tədqiqat göstərir ki, dərs vaxtı uşağın davranışı onun dərsdə uğur qazanmasında daha mühüm amildir. Başqa cür deyilərsə, ayaqüstə duranda biz oturmağa nisbətən daha yaxşı dərk edirik" - professor sözlərinə yekun vurub.

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

- Dünyada kasıb çoxdur, yoxsa varlı?
- Varlı!
- Nədən bilirsən?
- Görmürsən mərd çox azdır?!

***

- İstəyirəm o qıza ürəyimi açım.
- Məsləhət görmürəm.
- Niyə?
- Sən bir onun çantasına bax, gör nə boydadır?!

***

Bir qadın yalanları ilə kupedəki yol yoldaşlarını lap təngə gətirir. Bir kişi durub çıxmaq istəyərkən xanım onu nəzakətsizlikdə günahkarlandırır:

- Hara gedirsiniz? Mən hələ söhbətimi bitirməmişəm.
- Üzr istəyirəm, xanım, buyurun, növbəti yalanınızı da dinləməyə hazıram.

***

- Filankəs deyəsən səninlə danışmır axı?
- Nə olsun? Mənimlə danışmasa da, məndən nə desən, danışır.

***

- Tezliklə məktəbi bitirəcəksən. Könlündən hansı peşə keçir?
- Atam dənizçi olmağımı istəyir, anam isə yanğınsöndürən.
- Bəs sən?
- Mən də qalmışam odla su arasında.

*Rasif TAHİROV*

## 400-dən çox qaçqını xilas etmişlər

**Almaniya hərbi dəniz qüvvələrinin "Gessen" gəmisi Aralıq dənizi hövzəsində 294 qaçqını xilas etmişdir. Bu barədə "Die Welt" qəzeti xəbər verir.**

Məlumata görə, göyərtəsində 107 qaçqın olan birinci qayıq Liviyanın paytaxtı Trablisdən 80 kilometr şimal-şərqdə batmağa başlamışdır. İkinci qayıqda 102 nəfər olmuşdur. Üçüncü qayığın göyərtəsindən 85 nəfər xilas edilmişdir. Onların arasında 28 qadın və 3 uşaq olub.

Qaçqınlar Siciliyanın Potsallo limanında İtaliya hökumətinə təhvil verilib.

Şimali Afrikadan olan qaçqınlar qanunsuz daşınmalar təşkil edən qaçaqmalçıların köməyi ilə Avropaya keçməyə cəhd edirlər. Bu cür "səyahət"lər zamanı mühacirlərin əksər hissəsi sahilə çatmamış həlak olur.

Bundesverin gəmiləri Berlinin təşəbbüsü ilə mayın 5-dən başlayaraq qaçqınların xilasında iştirak edir. Artıq ilk günlərdə "Gessen" və "Berlin" freqatları 400 nəfərdən çox qaçqını xilas etmişdir.

## Eyni vaxtda 17 gəmidən fəlakət siqnalı verilmişdir

**Mayın 30-da Afrikadan Avropaya gedən təxminən 3300 qanunsuz miqrant İtaliyanın sahil mühafizəsi tərəfindən xilas edilmişdir. Mühafizəçilərin dediklərinə görə, miqrantlar eyni vaxtda 17 gəmidən fəlakət siqnalları vermişlər.**

Sonradan məlum olmuşdur ki, mühacirlərin xilas olunması üzrə əməliyyat zamanı italiyalı sərhədçilər 17 cəsəd aşkar etmişlər.

Yaxın Şərq və Afrika ölkələrindən Avropaya getməyə cəhd edən qanunsuz miqrantların sayı gündən-günə artır. Beynəlxalq Miqrasiya Təşkilatının (İOM) məlumatına görə, təkcə bu ilin əvvəlindən Aralıq dənizində 1826 qanunsuz mühacir həlak olmuşdur.



*BAŞ REDAKTOR*
Rasif İman oğlu TAHİROV

ÜNVANIMIZ:
AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 22
TELEFONLARIMIZ
Baş redaktor (050) 670-33-76,
Redaktor (070) 252-39-02

*Qəzetin təsisçisi*
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 59